Ədəbiyyat qəzeti

# Dağlar oğlu anıldı

*Yazıçı, dramaturq, şair Məmmədhüseyn Əliyevin 100 illiyi*






12 iyun 2025-ci il tarixdə AYB Lənkəran Bölməsi və Lerik rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Lerik şəhər Mədəniyyət Mərkəzində yazıçı, dramaturq, şair Məmmədhüseyn Əliyevin 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu.

Tədbir Mərkəzin foyesində yubilyarla bağlı təşkil olunan sərgi ilə tanışlıqdan başlandı. Sərgidə nümayiş olunan, tarixi 80 ilə çatan foto-şəkillər, kitablar, qəzet və jurnallar tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

Tədbir Mərkəzin geniş zalında filologiya elmləri doktoru, professor İslam Qəriblinin moderatorluğu ilə davam etdi. İ.Qəribli yubilyarın Azərbaycan ədəbiyyatında tutduğu mövqeyi barədə qısa fikirlərini tədbir iştirakçıları ilə bölüşdü. Sonra tamaşaçılar "Zərban" TV-nin hazırladığı Məmmədhüseyn Əliyevin həyat və yaradıcılığını əks etdirən videoroliki seyr etdilər.

İlk olaraq söz Lerik rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasova verildi. İcra başçısı tədbir iştirakçılarını salamlayıb, Lerik rayonunda doğulub öz qələminin, sözünün gücü ilə bütün ölkədə tanınan bu böyük şəxsiyyətin yubileyinin keçirilməsindən məmnun olduğunu bildirdi.

Sonra söz digər iştirakçılara verildi. Milli Məclisin deputatı Vasif Qafarov tariximizi və şəxsiyyətlərimizi yaşatmaq baxımından tədbirin əhəmiyyətini yüksək qiymətləndirdi. Şair-publisist Ağacəfər Həsənli yaradıcılıqda xeyir-duasını aldığı Məmmədhüseyn Əliyevin şəxsiyyətinə və sənətinə olan hörmət və ehtiramını bildirdi.

AYB Lənkəran Bölməsinin sədri, yazıçı-dramaturq Qafar Cəfərli çıxışında hələ məktəbli vaxtlarında Lənkəran radiosunun baş redaktoru işləyən Məmmədhüseyn Əliyevlə olan görüşlərindən, hətta onun imzası ilə olan radionun "ştatdankənar müxbiri " vəsiqəsini indi də xatirə olaraq saxlamasından, böyük yaş fərqinə rəğmən aralarında xoş münasibət olmasından, bu gün isə onun uzun illər rəhbəri olduğu AYB Lənkəran Bölməsində vaxtilə qoyulmuş ənənələri sədr olaraq layiqincə davam etməyə çalışmasından danışdı.

Lənkəran Dövlət Universitetinin professoru, əməkdar müəllim Yədulla Ağazadə, xalq artisti Qabil Quliyev, şair Şahin Həmidli, yazıçının doğulub boya-başa çatdığı Lerik rayonu, Kürdəsər kənd tam orta məktəbinin direktoru Fəğan Ağayev, yazıçının qızı, fəlsəfə elmləri doktoru Sədaqət Əliyeva çıxış edərək, Məmmədhüseyn Əliyevin pedaqoji və yaradıcılıq fəaliyyətinin xüsusiyyətlərindən, mənəvi, insani keyfiyyətlərindən, bölgədə ədəbi mühitin inkişafında göstərdiyi xidmətlərdən danışıb, onunla bağlı xatirələrini bölüşdülər. Onun dəyanətli, qürurlu, məğrur, sözübütöv bir şəxsiyyət, həm nəsr, həm poeziya, həm dramaturgiya, həm də publisistik yaradıcılığı ilə özünə əbədi heykəl qoyan istedadlı bir ədib olduğunu bildirdilər.

Lənkəran Dövlət Dram Teatrının aktyorları - Allahverən Babayev, Mələykə Cəfərova, Ayşən Əsədova, Gülər Kərimli və Saleh Əzimzadənin ifasında Məmmədhüseyn Əliyevin şeirləri, qəzəlləri səsləndi. Xanəndələrdən - İmanverdi Ağayev və Əliyar Hüseynovun ifasında yubilyarın qəzəllərinin muğam üstündə səslənməsi, Lerikə həsr olunan şən musiqi nömrələri tədbirə xüsusi gözəllik qatdı.

Sonda söz yazıçının oğlu, tanınmış həkim Ənvər Rüstəmova verildi. Ənvər Rüstəmov tədbirin təşkilatçıları olan AYB Lənkəran Bölməsi və Lerik rayon İcra Hakimiyyətinin rəhbərliyinə, atası haqqında xoş söz söyləyən, çıxış edən ziyalılara, bütün tədbir iştirakçılarına ailəsi adından dərin təşəkkürünü bildirdi.

Tədbir xatirə şəkilləri çəkilməklə başa çatdı.

**AYB Lənkəran bölməsi**